**UOT: 338.012:338.246**

***Nigar Roman qızı HACIYEVA***
***Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı.***
***E-mail: hajiyeva2021@inbox.ru***

# MÜASİR DÖVRDƏ MİLLİ İQTİSADİYYATIN QEYRİ-NEFT SEKTORU SAHƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi –** müasir dövrdə milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi məsələlərinin tədqiqi və bu məsələlərə yeni yanaşmaların təmin olunmasıdır.

**Tədqiqatın metodologiyası** – müxtəlif iqtisadi metodlar, o cümlədən təhlil, sintez və ümumiləşdirmə metodları götürülmüşdür.

**Tədqiqatın tətbiqi əhəmiyyəti –** indiki şəraitdə milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrinin rəqabət qabiliyyətinin artırılmasına yeni çağırışlara uyğun olaraq elmi-praktiki yanaşmaların müəyyənləşdirilməsidir.

**Tədqiqatın nəticələri** – qlobal problemlərin artdığı bir dövrdə milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrinin rəqabətqabiliyyətinin artırılması və bu sahələrin potensialından daha səmərəli istifadə olunması üzrə tədbirlərin görülməsindən ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – müasir dövrdə milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrinin rəqabətqabiliyyətinin artırılmasının strateji rolu əsaslandırılmışdır. Milli iqtisadiyyatın inkişafında və onun strukturunun təkmilləşdirilməsində qeyri-neft sektoru sahələrinin prioritetliyi elmi arqumentlərlə verilmişdir. Yeni çağırışların və qlobal problemlərin təsirindən yaranan şəraitdə, milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrinin rəqabət qabiliyyətinin yüksəlməsinə dair tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: milli iqtisadiyyat, qeyri-neft sektoru, rəqabətqabiliyyətlilik, qeyri-neft sektorunun rəqabətqabiliyyətliliyi, milli iqtisadiyyatın inkişaf prioritetləri, iqtisadi səmərəlilik.***

## *Giriş*

Müasir dövrdə milli iqtisadiyyatın əsas məqsədi onun sabitləşməsi və innovasiya mərhələsinə tam keçid olmalıdır. Bazar iqtisadiyyatı şəraitində rəqabət qabiliyyətinin artırılması ölkə daxilində müvafiq rəqabət mühitinin yaradılması ilə təmin edilə bilər. Artan beynəlmiləlləşmə və qloballaşma prosesi şəraitində milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri ön plana çıxır. Rəqabətqabiliyyətlilik müəyyən iqtisadi quruma və ya ölkəyə rəqabət üstünlükləri verən xassələrin məcmusudur.

Rəqabətlilik cəmiyyətin bütün sahələrində özünü göstərir. Ona görə də demək olar ki, bu, unikal göstəricidir. O, istehsal həcminin və sürətinin tənzimləyicisidir. İstehsalçını istehsalı, işin təşkilini təkmilləşdirməyə, innovasiyaları və elmi-texniki həlləri tətbiq etməyə sövq edir [3, s.53].

Qloballaşan dünyada rəqabətqabiliyyətlilik problemi daha da kəskinləşir. Bunun üçün məhsulun, sənayenin və ölkənin rəqabət qabiliyyətinin dünya iqtisadiyyatının inkişaf tendensiyalarına uyğun qurulması zəruridir. Rəqabət qabiliyyətinin müəyyən edilməsində metodoloji yanaşmaların müxtəlifliyi fəaliyyətin və göstəricilərin daimi dəyişməsini tələb edir. Bu baxımdan milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəlmiş tədbirlərin işlənib hazırlanması mühüm vəzifədir [2, s.124].

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün bu prosesin öyrənilməsi aktual vəzifədir. Onun öyrənilməsi həlli makro səviyyədə dayanıqlı rəqabət üstünlüklərinin təmin edilməsi üçün əsasları inkişaf etdirməyə və müasir şəraitdə ölkələrin iqtisadi inkişafının əsas amillərini müəyyən etməyə imkan verəcəkdir.

“Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi” iqtisadi kateqoriyası dünya bazarlarında rəqabətin artması ilə əlaqədar olaraq 1980-ci illərdən fəal şəkildə istifadə olunur. Rəqabət qabiliyyətinin təmin edilməsi zərurəti probleminin aktuallaşması bir çox iqtisadçı alimlərin əsərlərində öz əksini tapmışdır. Üstəlik, “rəqabətqabiliyyətlilik” iqtisadi kateqoriyasından istifadənin zəruriliyi və onun makroiqtisadi sistemlərə münasibətdə tətbiqinin məqsədəuyğunluğu ilə bağlı ziddiyyətli fikirlər mövcuddur.

**Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri və bununla bağlı məsələlərin təhlili**

Rəqabət qabiliyyətini təyin edərkən əksər tədqiqatçılar onun əsas xüsusiyyətlərinə, yəni nisbilik, obyektivlik, şərtilik, dinamizm, idarəetmə qabiliyyətinə əsaslanır. Eyni zamanda, rəqabət qabiliyyətinin xarakteristikası subyektin müəyyən rəqabət hərəkətlərini rəqiblərdən daha səmərəli və daha yaxşı yerinə yetirmək qabiliyyəti kimi vacib bir xüsusiyyətlə tamamlanır. Buna əsaslanaraq, iqtisadi metodologiya və nəzəriyyə baxımından rəqabətqabiliyyətlilik dedikdə, bazar subyektinin onu rəqabət üstünlükləri ilə təmin edən xassələrə və müəyyən hərəkətləri yerinə yetirmək qabiliyyətinə malik olması başa düşülməlidir [9, s.19].

M.Porter özünün “Ölkələrin rəqabət üstünlükləri” nəzəriyyəsində hər hansı bir ölkənin digər ölkələrlə rəqabət üstünlüklərində 4 determinantı xüsusilə qeyd edirdi. Bunlar istehsalın təminat amilləri, daxili bazarda məhsula tələbatın yüksək olması, ölkədə rəqabətqabiliyyətli təchizatçı və istehsal sahələrinin mövcudluğu, ölkədə rəqabət mühitinin, biznes şəraitinin yüksək olmasıdır. M.Porterin fikrincə bu 4 determinanta malik ölkələr rəqabətdə daha çox üstünlüklərə malik olurlar [1, s. 40].

**Cədvəl 1**

**Milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik göstəriciləri və amilləri**

| Rəqabət qabiliyyətinin növləri | Göstəricilər | Amillər |
|---|---|---|
| Xarici rəqabət qabiliyyəti | İxrac | Təbii ehtiyatların və yüksək texnologiyalı məhsulların balanslaşdırılmış ixracı. |
| Daxili rəqabət qabiliyyəti | İstehsalın və idxalın həcmi | 1. İdxalın həcmi.<br>2. Yerli malların istehsalının artırılması. |
| Resurs rəqabətliliyi | Əmək məhsuldarlığı | 1. Avtomatlaşdırılmış istehsalın payının artırılması.<br>2. Kadrların inkişafı. |
| | Əsas vəsaitlərinin köhnəlmə dərəcəsi | 1. Əsas fondların yenilənməsi. |
| Bank sisteminin rəqabət qabiliyyəti | Kreditlər üzrə faiz dərəcələri | 1. Yenidən maliyyələşdirmə dərəcəsi.<br>2. Kredit müddəti.<br>3. Kredit təminatının xüsusiyyətləri.<br>4. Borcalanın ödəmə qabiliyyəti və etibarlılığı.<br>5. İnflyasiya səviyyəsi. |
| Maliyyə sisteminin rəqabət qabiliyyəti | Ticarət balansı | 1. İxracın artması. |
| | Xarici investisiyaların həcmi | 1. İnvestisiyaların yönəldildiyi daxili və xarici bazarların ölçüsü və xarakteri.<br>2. Vergi sisteminin xüsusiyyətləri.<br>3. İnfrastrukturun mövcudluğu və inkişaf dərəcəsi.<br>4. Qiymətlərin və əmək haqqının səviyyəsi.<br>5. İnvestorlar üçün dövlət zəmanətlərinin olması.<br>6. Dövlət proteksionizmi tədbirlərinin olması və ya olmaması. |
| | Dövlət borcunun həcmi | 1. Dövlət xərclərinin həcmi.<br>2. Dövlətin kredit siyasəti. |
| | İnflyasiya | 1. Yenidən maliyyələşdirmə dərəcəsinin ölçüsü.<br>2. Dövlət büdcəsinin kəsiri.<br>3. Həddindən artıq investisiyalaşma.<br>4. İnflyasiya gözləntiləri. |

*Mənbə: müəllif tərəfindən tərtib edilib*

Ölkənin rəqabət qabiliyyətini bir ölkənin azad rəqabət şəraitində dünya bazarının tələblərinə cavab verən, dövlətin və onun ayrı-ayrı vətəndaşlarının rifahını yüksəldən əmtəə və xidmətlər istehsal etmək qabiliyyəti kimi başa düşə bilərik. M.Porter hesab edir ki, dünya iqtisadiyyatının inkişafının bu mərhələsində ölkənin ölçüsü, hərbi gücü, əmək və təbii ehtiyatları, kapitalı kimi rəqabət üstünlükləri olur. Alim biznes mühitini yaxşılaşdıran, nəticədə resursdan istifadənin məhsuldarlığını artıran institutların yaradılmasına və siyasətin həyata keçirilməsinə xüsusi önəm verir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, iqtisad elmində rəqabət qabiliyyətinə təsir edən amillər toplusunun bir neçə variantı mövcuddur. Eyni zamanda, amillərin əhəmiyyətli müxtəlifliyi iqtisadi reallığın özünün müxtəlifliyi və çoxşaxəliliyi, habelə ölkə iqtisadiyyatının inkişafın müxtəlif səviyyələrində ola bilməsi ilə müəyyən edilir.

Dünyanın bir çox ölkələrinin uğuru bilavasitə möhkəm elmi informasiya bazası və keyfiyyətli işçi qüvvəsinin olması ilə bağlıdır. Rəqabət üstünlükləri daha yüksək əmək məhsuldarlığını, daha yaxşı məhsul keyfiyyətini və effektiv idarəetməni təmin edən ölkələr tərəfindən əldə edilir. Baxılan amillər arasında işçilərin peşəkar inkişaf səviyyəsi ilə xarakterizə olunan və rəqabət üstünlüyü təşkil edən işçi qüvvəsinin keyfiyyəti xüsusi yer tutur. Bu amillər milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsində həlledicidir.

Bütövlükdə ölkənin dünya ölkələri arasında rəqabətqabiliyyətliliyinin yüksəldilməsi dünya iqtisadiyyatı proseslərində fəal iştirak etməklə müasir texnologiyaların ölkəyə gətirilməsi, innovasiyaların tətbiqi və dünya təsərrüfatı sistemində layiqli yer tutması istəyi ilə bağlıdır [1, s.41].

Milli iqtisadiyyatların rəqabət qabiliyyətinin artırılması problemləri demək olar ki, bütün iqtisadi məktəblərin tədqiqat obyekti olmuşdur. Bu məsələlərə maraq bu gün də azalmayıb. Hazırkı geosiyasi şəraitdə dünya ölkələrinin iqtisadiyyatlarının davamlı inkişafı milli iqtisadiyyatların rəqabət qabiliyyəti ilə bağlıdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi məsələlərinin aktuallığı və təcrübi əhəmiyyəti onun müxtəlif imperativlərinin öyrənilməsini zəruri edir.

Müasir ədəbiyyatda milli rəqabətqabiliyyətlilik probleminə müxtəlif aspektlərdən baxılır: milli iqtisadiyyatların rəqabət qabiliyyətinin nəzəri əsaslarına diqqət yetirilir, onun innovativ imperativləri və onların formalaşmasında dövlət siyasətinin rolu öyrənilir, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik amilinin ifadəsi üçün iqtisadi sistemin uğurunun alternativ göstəricisindən istifadə etmək məqsədilə nəzəri və metodoloji yanaşmalar işlənir, rəqabət qabiliyyətinin artırılması üzrə dövlət siyasətinin istiqamətləri nəzəri cəhətdən əsaslandırılır, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin amilləri konkretləşdirilir.

Ölkələrin beynəlmiləlləşmə və qloballaşma proseslərinə cəlb olunması dünya bazarlarında rəqabəti artırır və gərgin, dinamik rəqabətlə səciyyələnən hiperrəqabətin formalaşmasına şərait yaradır. Hiperrəqabət məhsulun həyat dövrlərinin sürətlənməsinə, əvəzedici məhsulların, yeni texnologiyaların, biznes modellərinin və s.-nin davamlı olaraq meydana çıxmasına səbəb olmuşdur. Beynəlxalq iqtisadi münasibətlərin belə intensivləşməsi ayrı-ayrı ölkələrin davamlı rəqabət üstünlüklərinin yaradılması və saxlanması problemlərini aktuallaşdırır. Qeyd etmək lazımdır ki, qloballaşma ilə paralel gedən milli iqtisadiyyatların post-sənayeləşməsi iqtisadiyyatda biliyin və elmin rolunun artmasına, innovasiya proseslərinin sürətlənməsinə töhfə vermiş və nəticədə iqtisadiyyatın dəyişməsinə də təsir etmişdir. Elm və texnikanın yeni nailiyyətlərinin tətbiqinə əsaslanan rəqabət iqtisadi inkişafın mühərrikinə çevrilir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, uzunmüddətli perspektivdə dayanıqlı iqtisadi artım daha çox intensiv amillərdən, yəni elmin, texnikanın, texnologiyanın və biliklərin kommersiyalaşdırılmasında qabaqcıl təcrübənin ən mütərəqqi nailiyyətlərinin inkişafını təmin edən amillərdən asılıdır.

Milli iqtisadiyyatın rəqabət qabiliyyəti insan kapitalının səviyyəsi, onun formalaşması, artırılması imkanları və səmərəli istifadəsi ilə bağlıdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin formalaşmasında və yüksəlməsində insan kapitalının rolu və əhəmiyyəti əvəzedilməzdir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması mürəkkəb vəzifədir. Onun uğuru insan kapitalının inkişafı ilə müəyyən edilir. Milli iqtisadiyyatın rəqabət qabiliyyəti bir sıra inteqral göstəricilər əsasında müəyyən edilir. Fikrimizcə, belə inteqral göstəriciləri kimi Qlobal Rəqabətqabiliyyətlilik

İndeksi və İnsan İnkişafı İndeksindən istifadə etmək olar. Qlobal Rəqabətqabiliyyətlilik İndeksi milli iqtisadiyyatların rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün mövcud yanaşmalardan biridir. Bu indeks Dünya İqtisadi Forumunun təşəbbüsü ilə milli iqtisadiyyatların rəqabət qabiliyyətinin çoxsaylı və müxtəlif amillərinə əsaslanaraq hazırlanıb. Qlobal Rəqabətqabiliyyətlilik İndeksi hazırda milli iqtisadiyyatların rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün əsas inteqral göstəricidir. Qlobal Rəqabətqabiliyyətlilik İndeksi milli rəqabət qabiliyyətinin 12 amilinə birləşdirilmiş 113 dəyişən əsasında hesablanır:

1) təşkilatların keyfiyyəti,
2) infrastruktur,
3) makroiqtisadi sabitlik,
4) səhiyyə və ibtidai təhsil,
5) ali təhsil və peşə hazırlığı,
6) mal və xidmətlər bazarının səmərəliliyi,
7) əmək bazarının səmərəliliyi,
8) maliyyə bazarının inkişafı,
9) texnoloji inkişafın səviyyəsi,
10) daxili bazarın həcmi,
11) müəssisələrin rəqabətqabiliyyətliliyi,
12) innovasiya potensialı [10, s. 122; 11, s.11].

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin səviyyəsi ilə milli insan kapitalının vəziyyəti arasındakı əlaqəni kəmiyyətcə qiymətləndirən inteqral göstərici insan inkişafı indeksidir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin qiymətləndirilməsinin mahiyyətinin və göstəricilərinin müəyyənləşdirilməsinə yanaşmaların öyrənilməsi rəqabət qabiliyyətinin dörd konsepsiyasını ayırmağa imkan verir:

- ticarət konsepsiyası - milli iqtisadiyyatın rəqabət qabiliyyətinin ölkənin dünya bazarlarında yerini müəyyən edir;
- investisiya konsepsiyası - rəqabətqabiliyyətlilik istehsal amillərini yaratmaq və cəlb etmək qabiliyyəti kimi özünü göstərir;
- istehsal konsepsiyası - makro səviyyədə rəqabətqabiliyyətlilik ölkənin əmək məhsuldarlığını yüksəltmək qabiliyyəti kimi özünü göstərir;
- innovativ konsepsiya - milli iqtisadiyyatın rəqabət qabiliyyətinin dəyişikliklərə uyğunlaşmaq, innovasiyaları inkişaf etdirmək və həyata keçirmək qabiliyyəti kimi özünü göstərir. Müasir dövrdə innovasiyalar vasitəsilə resurslardan istifadənin səmərəliliyinin artırılması milli iqtisadiyyatın əsas prioritetlərindən biridir.

**Yeni çağırışlar şəraitində milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi yolları**

İstərdik ki, müasir rəqabət mexanizminə və iqtisadi inkişafın reallıqlarına ən uyğun olanı müəyyən etmək üçün bu konsepsiyaları daha ətraflı nəzərdən keçirək.

1. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin ticarət konsepsiyası. Birinci konsepsiyaya uyğun olaraq, milli iqtisadiyyatın rəqabət qabiliyyəti bilavasitə ölkənin ticarət fəaliyyətinin effektivliyi ilə müəyyən edilir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin ticarət konsepsiyası çərçivəsində aparılan tədqiqatlar rəqabətqabiliyyətlilik səviyyəsinin ixrac və idxal qiymətlərinin nisbətindən, habelə xarici valyutanın real məzənnəsindən asılılığını aşkar etməyə imkan verir. Hesab olunur ki, beynəlxalq bazarlarda malların satışı ilə bağlı iqtisadiyyatda problemlər yarandığı halda, milli valyutanın devalvasiyaya ehtiyacı var ki, bu da vəziyyəti yaxşılaşdıracaq. Çünki milli istehsalçıların məhsullarının qiymətləri xarici alıcılar üçün daha aşağı olacaq. Belə bir şərh çərçivəsində ölkənin rəqabət qabiliyyətinin göstəricilərindən biri də inflyasiyanın səviyyəsi və əsas ticarət tərəfdaşı olan ölkələrin valyuta məzənnələrindəki dəyişikliklər nəzərə alınmaqla müəyyən edilən milli valyutanın real effektiv məzənnəsidir. Bununla belə, milli valyutanın devalvasiyası eyni zamanda rəqabət qabiliyyətinin azaldılması amilidir. Çünki devalvasiya inflyasiya gözləntilərini

artırır. Beləliklə, valyutanın devalvasiyası iqtisadi inkişafa ziddiyyətli təsir göstərir və həmişə rəqabət qabiliyyətinin artmasına səbəb olmur.

2. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin investisiya konsepsiyası. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin investisiya konsepsiyası ölkənin rəqabət üstünlükləri kimi əsas istehsal amillərini (investisiya, insan kapitalı) cəlb etmək qabiliyyətini vurğulayır. İnvestisiya konsepsiyasına görə, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin ən mühüm göstəricisi birbaşa xarici investisiyaların səviyyəsidir, çünki investorlar investisiya obyekti seçərkən maksimum gəlir və etibarlılığa can atacaqlar. Bu konsepsiya kontekstində bir sıra xarici iqtisadi jurnalların ekspert qrupları tərəfindən milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin göstəriciləri kimi ölkələrin investisiya cəlbediciliyinin müxtəlif kompleks göstəricilərindən istifadə olunur. Həmin jurnallarda qiymətləndirmə üçün həm keyfiyyət, həm də kəmiyyət göstəricilərindən istifadə olunur: iqtisadi səmərəlilik, siyasi risk səviyyəsi, borcun vəziyyəti, kredit qabiliyyəti, bank kreditlərinin mövcudluğu, qısa və uzunmüddətli maliyyələşdirmənin mövcudluğu, fors-major halların baş vermə ehtimalı.

3. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin istehsal konsepsiyası. Hal-hazırda ən çox yayılmış olan milli iqtisadiyyatın rəqabət qabiliyyətinin istehsal konsepsiyasıdır. Bu konsepsiyaya görə, rəqabət üstünlüklərinin əldə edilməsi birbaşa məhsuldarlıqdan, yəni iqtisadi sistemin istehsal potensialından tam istifadə etmək qabiliyyətindən asılıdır. Qeyd etmək lazımdır ki, bir sıra müəlliflər bu konsepsiya çərçivəsində rəqabət qabiliyyətini əmək məhsuldarlığının səviyyəsi ilə, bəziləri isə adambaşına düşən gəlir səviyyəsi ilə əlaqələndirirlər. Adambaşına düşən gəlir daha geniş yayılmışdır. Adambaşına düşən ÜDM-in səviyyəsi inkişaf etmiş ölkələri müqayisə edərkən geniş istifadə olunur. Çünki o, ölkə əhalisinin rifah səviyyəsini və maddi nemətlərin əhali üçün əlçatanlıq dərəcəsini müəyyən edir. Qeyd etmək lazımdır ki, eyni zamanda adambaşına düşən ÜDM-i aşağı olan ölkələr daha yüksək ÜDM-ə malik olan ölkələrlə müqayisədə daha yüksək artım tempinə malik ola bilər ki, bu da çox vaxt istifadə olunmamış resursun, əmək və istehsal potensialının olması ilə bağlıdır.

4. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin innovativ konsepsiyası. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin innovativ konsepsiyası rəqabətin funksional konsepsiyasına əsaslanır. Bu baxımdan rəqabət yeni ideyaların daim axtarışına və müəssisənin müxtəlif aspektlərində elmi-texniki tərəqqinin tətbiqinə əsaslanan bazar rəqabətidir. Müvafiq olaraq, bu kontekstdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi innovasiyanın inkişafı və tətbiqi yolu ilə ölkənin bazar dəyişikliklərinə tez uyğunlaşma qabiliyyəti kimi müəyyən edilir. J.Şumpeterin fikrincə, iqtisadiyyat əsas təkanı "yeni kombinasiyaların həyata keçirilməsindən", yəni yeni əmtəələrin istehsalından, yeni texnologiyaların tətbiqindən və s.-dən alır [4, s.55].

Beləliklə, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin nəzərdən keçirilən dörd konsepsiyası tədqiq olunan iqtisadi kateqoriyanın mahiyyətini müxtəlif cür şərh etmələrinə və onun ayrı-ayrı əsas amillərinə diqqət yetirmələrinə baxmayaraq, bir-biri ilə ziddiyyət təşkil etmir. Bundan əlavə, müxtəlif konsepsiyalarda rəqabət qabiliyyətinin mümkün göstəriciləri bir-biri ilə sıx bağlıdır. Fikrimizcə, rəqabətqabiliyyətliliyin innovativ inkişaf konsepsiyası iqtisadi inkişafın hazırkı reallıqlarına ən yaxşı cavab verir. Çünki, innovasiyaları tətbiq etmək bacarığı milli iqtisadiyyatın təmin edilməsində və rəqabət qabiliyyətində indiki dövrdə əsas amildir. İnnovativ fəaliyyətin artırılmasına kömək edən iqtisadi şəraitin yaradılması hesabına milli təsərrüfat subyektlərinin dünya bazarlarında rəqabət qabiliyyətinin artmasına nail olmaq mümkündür ki, bu da həmin subyektlərin fəaliyyətinin səmərəliliyinin və bunun nəticəsində ölkədə yüksək rifah səviyyəsinin artmasına gətirib çıxarır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin şərhinə belə "innovativ" yanaşma ticarət, istehsal və investisiya konsepsiyalarına əsaslanan "ənənəvi" yanaşmadan fərqlənir (cədvəl 1). Bu fərqlər aşağıdakılardan ibarətdir:

- milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə nail olmaq göstəriciləri təkcə ölkənin payının artması deyil, iqtisadi artımın və əhalinin rifahının yüksəlişinin intensiv növünü təmin edən yüksək innovasiya səviyyəsidir;

- milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin əsas amilləri əmək, təbii ehtiyatlar, kapital deyil, elmi tədqiqat, yaradıcı fəaliyyət, innovasiyaları tətbiq etmək bacarığı kimi innovativ amillərdir;
- milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin edilməsinin əsasını təsərrüfat subyektləri arasında sıx əlaqələr hesabına yaranan sinergik effekt təşkil edir;
- elm və innovasiyalar iqtisadi artımın daha çox endogen amili kimi çıxış edir [5, s.86].

Postindustrial iqtisadiyyatda dəyişikliklərə uyğunlaşmaq və innovasiyaları tətbiq etmək bacarığı milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsində həlledici amilə çevrilir. Rəqabətqabiliyyətliliyin innovativ konsepsiyasından Ümumdünya İqtisadi Forumunun nümayəndələri tərəfindən ölkələrin Qlobal Rəqabətlilik İndeksinin müəyyən edilməsi metodologiyasının işlənib hazırlanması prosesində istifadə edilmişdir.

Bu indeksin metodologiyasına uyğun olaraq, milli iqtisadiyyatların rəqabət qabiliyyətinə üç qrupda birləşən geniş spektrli amillər təsir edir:
- əsas tələblər: institutlar, infrastruktur, makroiqtisadi sabitlik, fərdi təhlükəsizlik, insan kapitalının inkişaf səviyyəsi;
- səmərəliliyin artırılması şərtləri: inkişaf etmiş insan kapitalı, əmtəə bazarlarının səmərəliliyi, əmək bazarının səmərəliliyi, maliyyə bazarının səmərəliliyi, texnoloji hazırlıq, bazarın açıqlığı və tutumu;
- innovativ inkişafın şərtləri: biznesin aparılması və innovasiyaların mürəkkəbliyi.

Bu amil qruplarının təsir dərəcəsi adambaşına düşən ÜDM-in səviyyəsi ilə müəyyən edilir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinə institusional amillər də təsir göstərir. İnstitusional amillər əsasında milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması əhalinin rifahının və həyat səviyyəsinin yaxşılaşmasına səbəb olan sosial-iqtisadi sferanın keyfiyyət və kəmiyyət transformasiyası prosesidir. Milli təsərrüfat kompleksinin rəqabətqabiliyyətlilik səviyyəsini ölkənin iqtisadi sisteminin inkişafında ayrılmaz amillərdən biri hesab etmək olar. İqtisadi sahənin modernləşdirilməsi və investisiya mühitinin yaxşılaşdırılması isə bu məqsədə çatmaq üçün əsas vasitə kimi çıxış edir.

İnstitusional rəqabət qabiliyyətinə iki mövqedən baxmaq olar:
1. İqtisadiyyatın inkişaf və modernləşmə səviyyəsi mövqeyindən;
2. Digər qurumların rəqabət üstünlükləri ilə müqayisə baxımından [7, s. 6].

Milli iqtisadiyyatın institusional rəqabət qabiliyyətinin artırılması mövcud iqtisadi sistemin iş qabiliyyətindən, sistemin həyat qabiliyyətini şərtləndirən amillərdən asılıdır. Nəticədə institusional komponentə malik alətlərdən istifadə əsasında neqativ amilləri azaltmaq və ölkə iqtisadiyyatının inkişafı üçün əlverişli mövqeləri artırmaq mümkün olur. İnstitusional rəqabətqabiliyyətlilik milli iqtisadiyyatın inkişafının idarə edilməsinin əsas vasitələrindən birinə çevrilir və ölkənin və onun subyektlərinin iqtisadi sisteminin inkişafına, habelə bu inkişafın kəmiyyət və keyfiyyət tərəfinə təsir göstərir [8, s.165]. Bütövlükdə, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi sənayeyə, bazara və cəmiyyətin digər mühüm sahələrinə təsir edən hökumət və korporativ qərarların qəbulu ilə sıx bağlıdır. Rəqabətqabiliyyətlilik anlayışının tətbiqinin genişliyinə əsaslanaraq, ən çətin məsələlərdən biri onun qiymətləndirilməsidir. O, müxtəlif amillərə və göstəricilərə əsaslanır [6, s. 240].

## *Nəticə*

Beləliklə, həm xarici, həm də daxili bazarlarda artan rəqabət fonunda ölkə iqtisadiyyatının davamlı inkişafı yalnız milli iqtisadiyyatın və onun subyektlərinin rəqabət qabiliyyətinin səviyyəsinin əsaslı şəkildə yüksəldilməsi ilə mümkündür. Bu, dövlət orqanlarının və sahibkarlıq subyektlərinin praktiki fəaliyyətinin əsas vektoruna çevrilməli olan ölkənin inkişafının strateji məqsədlərindən biridir. Məhz milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması sosial inkişafın və davamlı iqtisadi artımın yüksək səviyyəsi olan əhalinin həyat səviyyəsinin yüksəldilməsi və ictimai rifahın yaxşılaşdırılmasının əsas problemlərindən biri və əsas alətidir.

Milli iqtisadiyyatın institusional rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində aşağıdakılar lazımdır:

– məqsədlər ağacını formalaşdırmaq və ən strateji əhəmiyyətli və perspektivli inkişaf sahələrini seçmək;

– gələcək inkişaf üçün variantları və ssenariləri hazırlamaq;

– arzu olunan nəticələrin real əldə olunma dərəcəsini əsaslandırmaq üçün proqnoz hazırlamaq;

– işlərin gedişinə və yekun nəticəyə nəzarət etmək üçün göstəricilərin optimal birləşməsini formalaşdırmaq;

– təhlil edilən prosesin bütün həlledici parametrləri üçün hədəfləri müəyyən etmək;

– müvafiq məlumat axınını təşkil etmək;

– yekun nəticələri qiymətləndirmək və düzəldici tədbirlər görmək və s.

## ƏDƏBİYYAT


1. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, s. 185 s.
2. Sadıqova S. Rəqabət strategiyası və onun təhlili. İpək Yolu, 2019, № 3, 114-125
3. Бахтимов А.А., Ведерникова А.А. Экономическая сущность понятия “конкурентоспособность” // Общество. Наука. Инновации (НПК-2019): Сборник статей XIX Всероссийской научно-практической конференции: в 4-х томах. Киров: Вятский государственный университет, 2019. – С. 50-54.
4. Гармашова Е.П. Основные концепции конкурентоспособности национальной экономики // Вестник Сургутского государственного университета.– 2019.–№ 1(23).– С. 51-57.
5. Гармашова Е.П. Факторы конкурентоспособности национальной экономики // Вестник Керченского государственного морского технологического университета. – 2018. – № 4. – С. 81-88.
6. Жамкова В.С. Понятие конкурентоспособности: содержание, объем, структура (анализ научных подходов) // Друкеровский вестник. – 2019. – № 1(27). – С. 228-242.
7. Луканин Ю.В. Структурные аспекты институциональной конкурентоспособности национальной экономики // Terra Economicus. – 2012. – Т. 10. – № 2-3. – С. 5-8.
8. Луканин Ю.В. Теоретико-методологические аспекты исследования институциональной конкурентоспособности национальной экономики // Наука и общество. – 2012. – № 6(9). – С. 161-165.
9. Рудь Е.М. Конкурентоспособность: концептуальные подходы и уровни исследования // Известия Саратовского университета. Новая серия. Серия: Экономика. Управление. Право. 2021. Т. 21. № 1. С. 18-22.
10. Самородова Е.М., Марченкова Л.М. К вопросу о конкурентоспособности национальных экономик: роль человеческого капитала // Вестник ОрелГИЭТ. – 2021. – № 1(55). – С. 119-127.
11. Субцельная Т.А., Слепак Б.Э. Значение инноваций для формирования конкурентоспособности национальных экономик // Инновации и инвестиции. – 2020. – № 12. – С. 10-14.


***Нигяр Роман кызы Гаджиева,***
***Диссертант Азербайджанского***
***Государственного Экономического Университета***

## Вопросы повышения конкурентоспособности сферы ненефтяного сектора национальной экономики в современном периоде

***Резюме***

**Цель исследования** – состоит из определения эффективных форм и методов, путей обеспечения повышения конкурентоспособности сферы ненефтяного сектора национальной экономики в современном периоде.

**Методология исследования** – состоит из экономических методов: анализа, синтеза и обобщения, так же научно-методологических подходов разных учёных-исследователей.

**Практическое значение исследования** – состоит из определения более действующих мер и механизмов по повышению конкурентоспособности сферы ненефтяного сектора национальной экономики в современном периоде.

**Результаты исследования** – подготовлен ряд обоснованных предложений, которые могут способствовать повышению конкурентоспособности сферы ненефтяного сектора национальной экономики в контексте новых реалий.

**Оригинальность и научная новизна исследования** – обоснованы и предложены эффективные меры и механизмы, обеспечивающие повышение конкурентоспособности сферы ненефтяного сектора национальной экономики в условиях новых глобальных вызовов. Рассмотрена и обоснована необходимость максимального обновления или существенного совершенствования действующих механизмов и инструментарий по обеспечению конкурентоспособности ненефтяной сферы экономики страны. Подготовлен ряд рекомендаций и внесены предложения по интенсификации процессов повышения конкурентоспособности в данной сфере.

***Ключевые слова: национальная экономика, ненефтяной сектор, Конкурентоспособность, конкурентоспособность ненефтяного сектора, приоритеты развития национальной экономики, экономическая эффективность.***

***Nigar Roman Hajiyeva,***
***doctoral student of Azerbaijan***
***State Economic University***

## Issues of increasing the competitiveness of the non-oil sector of the national economy in the contemporay times

***Summary***

**The purpose of the study-** is to study the issues of increasing the competitiveness of the non-oil sector of the national economy in contemporary times and to provide new approaches to these issues.

**Research methodology** – various economic methods were used, including analysis, synthesis and generalization.

**The practical significance of the research-** is to identify scientific and practical approaches to increase the competitiveness of the non-oil sector of the national economy in the current situation in accordance with new challenges.

**Results of the research-** are to take measures to increase the competitiveness of the non-oil sector of the national economy and make more efficient use of the potential of these sectors at a time of growing global challenges.

**Originality and scientific novelty of the research** –The strategic role of increasing the competitiveness of the non-oil sector of the national economy in modern times has been substantiated. The priority of the non-oil sector in the development of the national economy and the improvement of its structure is given by scientific arguments. Recommendations and suggestions were made to increase the competitiveness of the non-oil sector of the national economy in the face of new and global challenges.

***Key words: national economy, non-oil sector, competitiveness, non-oil sector competitiveness, national economy development priorities, economic efficiency.***